# Cəbrayılsız yurd həsrətim

*(elegiya)*

Müharibə! Bu bir söz, bəşəriyyətin fəlakətinə çevrilmiş qorxunc kabusdur! İnsanıninsan tərəfindən vəhşət doğuran milyonların qətlamı! Elindən, obasından didərgin düşmüş, aclıq və səfalətlə üzləşən məhrumiyyətlilərin acı taleyi! Bütün bunlar, insan üzərində tətbiq edilmiş ölüm aktlarıdır!

Bəşər cəmiyyətinin yaranışından dövrümüzə qədər dünya meridianında baş vermiş müharibələrin sayı dəqiq bəlli deyil. Ancaq onu bilirəm ki, ötən əsrin 30-cu illərində Avropada baş qaldırmış Hitler faşist qüvvələrinin dünyanı lərzəyə gətirən qaraguruhçu ideyası nəticəsində ikinci dünya müharibəsi adı altında 60 milyondan çox insanın məhvinə səbəb olmuşdur. Və bir o qədər də insan yurdsuz-yuvasız, didərgin vəziyyətində qalmışdır. Fəlakətli dünya müharibəsi xalqlar dostluğunu stimul seçən SSRİ dövlətini dəöz caynağına almışdır.

Sovet dönəmində tarixdə Böyük Vətən Müharibəsi adı altında elliklə səfərbər edilənlər içərisində Azərbaycan Respublikasından 650000 nəfər cəsur döyüşçü ön cəbhədə vuruşmuş, 1 milyondan çox əməkçi insan isə arxa cəbhədə, iqtisadiyyatın bütün sahələrində gecə-gündüz çalışmışlar. Müharibədə döyüşən əsgərlərin bir qismi qəhramancasına həlak olmuş, bir qismi isə yaralı, şikəst halında ordudan tərxis olunub evlərinə qayıtmışlar. Və ən nəhayət cəbhədə döyüş zamanı "naməlum" adı altında çoxlu sayda itkin düşənləri də unutmaq olmaz!

Müharibə Sovetlər İttifaqının varlığına son qoymaq iddiası ilə başlanılmışdır. Azərbaycan Respublikası müharibə illərində güclü dövlət,cəsur xalq kimi tarixdəqəramanlıq salnaməsini yazmışdır.

Yeraltı-yerüstü təbii ehtiyatların istehsalında çalışanlar, uşaqdan-böyüyə hamılıqla cəbhəni təmin edənlərin xidmətləri danılmazdır.

Əfsuslar olsun ki, Azərbaycan Respublikası, onun şanlı paytaxtı Bakı şəhəri hələ də öz həqiqi Qəhraman dövlət, Qəhraman şəhər adını almamışdır.

Dünya tarixşünaslığında Azərbaycanın ön və arxa cəbhədə iştirakı xüsusi qeyd edilir. Müharibənin ilk illərində döyüşə göndərilən həmyerlilərimiz güclü faşist ordusu ilə üzləşməli olmuşlar. Qeyri bərabər güc döyüşlərində faşist hərb strategiyasının qurbanına çevrilmiş yüz minlərlə sovet əsgəri ilk dövrlərdə də təslim edilərək alman əsir düşərgələrinə, ağır fiziki işlərə göndərilirdi.

Əsirlər içərisində sovet məkanından olan müxtəlif xalqlardan olanlar yaxşı bilirdilər ki, geriyə yol, qayıdış yoxdur! Geriyə qayıtsalar Sibir meşələrinə sürgü edilib katorqalarda işgəncə altında işlədilərək məhv ediləcək, ya da vətən xaini damğası vurulub amansızlıqla güllələnəcəklər...!

Əsir düşərgələrində milyonlardan biri kimiəzablı işgəcələrlə üzləşən gənc zabit, əslən Cəbrayıl rayonun Daşkəsən kənində göz açmış İsmayılov Səxavət Abı oğlu da belə bir fəlakətingözləntisini yaxşı bilirdi!

Acı taleyi ilə barışan Səxavət bəy, məhrumiyyətli anlarda dözüm, səbr, təmkin nümayiş etdirib əsirlikdən tezliklə xilas olmaq haqqında düşünürdü.Hər an ötəngünlərin acılı-ağrılı xatirələrini yada salan qəhramanımız doğulub boyabaşa çatdığı doğma kəndində, Daşkəsən kəndində bolşevizmin tüğyan etdiyi repressiv qaydalar, qondarma kolxoz quruculuğunun acı fəsadları və heç bir günahı olmadan həps edilən neçə-neçə repressiya qurbanlarının taleyini yada salır və acıyırdı.

Uşaqlıq illərindən müəllim olmaq arzusu ilə Daşkəsən kəndində 7 illik təhsi alan, sonralar təhsilini Cəbrayıl rayonunda Maksim Qorki adına orta məktəbdə davam etdirib əla qiymətlərlə bitirən Səxavət Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin məzunu olur. O, ali təhsil aldıqdan sonra təyinatla Cəbrayıl rayonunda oxuduğu məktəbə ixtisası üzrə müəllim göndərilir. Çox keçmir ki, fəaliyyəti müəllim kollektivi tərəfindənrəğbətlə qarşılanır. Kollektivinetimadı sayəsində məktəbin direktoru təyin edilərək fəaliyyət göstərir.

Qəflətən alman faşist ordusu tərəfindən İkinci Dünya Müharibəsinin başlanması və SSRİ məkanına hücumu ilə yerlərdə cəbhəyə, döyüş bölgələrinə kütləvi səfərbərlik başlanır.

Ağır günlərdə Azərbaycanın bütün bölgələrində olduğu kimi, Cəbrayıl rayonunda da, o cümlədən Maksim Qorki adına orta məktəbində də kişi müəllimləri cəbhəyə səfərbər olunur. Səxavət müəllim bronlu mütəxəsis səfərbərlikdən azad olsa da, müəllim yoldaşlarının cəbhəyə göndərilməsindən narahat hisslər keçirir. Və rayon hərbi komissarlığına gedib ön cəbhəyə, döyüşə göndərilməsini xahiş edir. Nəhayət, dəfələrlə müraciət edən Səxavət müəllim könüllü surətdə cəbhəyə yollanır...!

## CƏBHƏ YOLLARINDA...

Gürcüstanda zabit heyyətində hərbi təlim keçib - Rusiya, Ukrayinada Sovet Ordusunda vuruşan Səxavət İsmayılovun xidmət etdiyi hərbi hissə alman ordusu tərəfindən mühasirəyə alınır, bütün şəxsi heyət əsir götürülür. Əsir düşərgəsində işgəncə, ağır fiziki işlər, aclıqla üzləşən Səxavət zabit kimi yoldaşları ilə birlikdə qurtulmaq üçün yollar arayır. Düşərgədə gizli təşkilatlanma işləri aparır, qaçış planına hazırlaşır. Və böyük bir dəstə ilə, xüsusən də azərbaycanlı əsirlərlə birlikdə düşərgədən qaçmağa nail olurlar. Bir müddət Avropa ərazisində, Rumıniya, Çexoslavakiya və İsveçrəqəsəbələrində gizli həyat yaşayır və ağır fiziki işlərdə muzdlu xidmətlər göstərir.

Səxavətin ən böyük istəyi əsir yoldaşları ilə birlikdə tezliklə qardaş Türkiyə dövlətinin ərazisinə keçib orada yaşamağa üstünlük verirdi. O və yoldaşları yaxşı bilirdilər ki, geriyə, vətənə yolları bağlıdır. Geri qayıdarlarsa xalq düşmənləri kimi dərhal güllələnəcək, ya da həbs edilib Sibirə - Tayqa meşələrinə sürgün edilib ağır fiziki işlərdə, katorqalarda məhv ediləcəklər. Sözsüz ki, Avropa ölkələrindən fərqli olaraq sovetlər ölkəsində əsir düşmüşlərə nifrətlə yanaşılır və qəbul etmirdilər! Və bir gün Səxavət və yoldaşları Türkiyəyə keçmək istəkləri həqiqətə çevrilir. O, əsir yoldaşları ilə Türkiyəyə keçir və müxtəlif fiziki işlərdə günəmuzd xidmətlər göstərirlər. Qısa zaman kəsiyində bizneslə məşqul olan Səxavət bəy dövrünün tələləblərinə uyğun ismini dəyişib Hasan bəy İsmayıllı adı altında tanınınır. Zəngin siyasi baxışlara malik olan Hasan bəy Türkiyədə olan tərəfdaşlarının səyi ilə Dostluq və Kultur Mərkəzini yaradaraq təşkilata rəhbərlik edir.

## AZƏRBAYCANIN ELM, İNCƏSƏNƏT XADİMLƏRİNİN TÜRKİYƏ SƏFƏRLƏRİ

Azərbaycan SSR-dən Türkiyə dövlətinə ezam edilən elm, incəsənət, ictimai xadimləri ilə mütamadi olaraq Dostluq və Kultur mərkəzində görüş təşkil edən Hasan bəy İsmayilli (Səxavət İsmayılov) və təşkilatın əməkdaşları tərəfindən rəğbətlə qarşılanır, lazımı xidmətlər göstərilirdi...

Bir gün, mərkəzin üzvilərindən biri, azərərbaycanlı Həmidə xanım Hasan bəyə yanaşaraq ailəsi ilə birlikdə bir neçə günlüyə qardaşı Məmmərzanın dəvəti ilə Bakıya gedəcəyini bildirir. Həmidə xanım əslən Azərbaycanın Nuxa şəhərində (indiki Şəki) doğulmuşdur. O, müharibədən çox-çox əvvəl Türk vətəndaşı ilə ailə qurduğu üçün həyat yoldaşı ilə Türkiyəyə, İstanbula köçmüş və məşhur aktyor, Azərbaycan Respublikasının Xalq Artisti Məmməd Rza Şeyxzamanovun doğma bacısıdır.

Həmidə xanımdaneşitdiyi xəbərdən qəhərlənən Hasan bəy, gözləri yol çəkirmiş kimi susur, sevincini gizlətmədən ona yaxşı yol diləyir. Hər an unutmadığı el-obasını, həsrətlə yad etdiy doğma Cəbrayıl rayonunu, Daşkəsən kəndini, tələbəlik illərində Bakıda təhsil alarkən ona dayaq olan Savalan babadan gördüyü doğmalığı göz önünə gətirib köksünü ötürdü. Gənclik illərində Savalan babanın yaşadığı Çapayev küçəsində, tramvayla dərsə getdiyi anları düşündükcə gözləri yaşardı.Müharibəyə gedəndə iki yaşlı qızı Elmiranı, cəbhədəömür gün yoldaşı Məleykədənaldığı məktubda Şamil adlı oğlunun dünyaya gəlməsi xəbərini xatırladı. Bir azdan xəyaldan ayrılan Hasan bəy, Həmidə xanımı diqqətlə süzüb: - Əgər Bakıda, Cəbrayıl elindən sizə rast gələn olsa deyərsiniz ki, Səxavət müəllim sağdır...

Hasan bəyə diqqətlə qulaq asan Həmidə xanımgöz yaşlarını saxlaya bilməyib kövrəkliklə: - Hasan bəy, narahat olmayın Bakıya çatanda sizinkiləri mütləq arayıb tapacam və sizin sağ olmağınızı onlara bildirəcəm, - dedi.

Həmidə xanım Bakıya gələrkən yaxınlarının dəvət edildiyi məclislərdə ürək ağrısı ilə Türkiyə həyatından və orada çoxlu sayda elindən didərgin düşmüş həmvətənləri haqqında danışır. Yaxın qohumunun evində məclisdə Hasan bəy və ailəsi haqqında söhbət açarkən təsadüf nəticəsindəev sahibi onun qızı Elmira ilə qonşu olduğunu bildirdi. İlk tanışlıqdan sonra Həmidə xanım Hasan bəyin İstanbulda yaşadığı ev ünvanını və telefon nömrəsini verdi.

## BAKIDAN GƏLƏN ÜÇÜNCÜ GECƏNİN ZƏNGİ...

Gecədən xeyli keçmiş aramsız çalınan telefon zənginə hövlanək oyanan Hasan bəy, dəstəyi götürüb "alo", - deyə cavab verdi. Xəttə tanımadığı qadının amiranə səsini eşidib çaşqınlıq içərisində susdu.

Qadın: - Bakıya cavab verin, xəbərini eşidən Hasan bəyhəyacanlı halda susur və qorxudan nə edəcəyini bilmir. Əlləri əsə-əsə telefonu qapadır.

İkinci gecə bu zəng yenidən təkrar olunur. Telefonda kövrək və hayqırtılı bir qadının səsi kəsilmək bilmirdi. Qadının səsini tanıyan Hasan bəy yerində donub qalır. Səsini çıxarda bilmir. Səntirləyərək arxasındakı divara söykənir. Boğazı sanki tıxaclanır. Cavab verməyə taqəti qalmır. Çıxılmaz vəziyyətə düşən Hasan bəy bir anlıq güman edir ki, bəlkə də bu ona qarşı düşünülmüş tələ ola bilər. Və nəhayət, üçüncü gecə də telefonun aramsız çalınan zəngi hamını yuxudan oyadır. Bütün ailə üzvüləri telefon masasına yaxınlaşır. Dəstəyi dərhal götürən Hasan bəy özündə güc toplayıb hıçqırtı ilə "alo" deyə bilir.Gözlərindən axan yaşları saxlaya bilməyib qəhərdən boğulan Hasan bəyin ilk sözü; - "dəstəyi oğlum Şamilə verin", - dedi!

Bir qədər özünü ələ alan Hasan bəy uzun ayrılıqdan sonra həsrətində olduğu el-obasının ətrini, ömür-gün yoldaşının nəfəsini, iki ciyər parasının səsini eşitdikcə qəlbi riqqətə gəldi və özünü saxlaya bilməyib hönkürtü ilə ağladı. Xəttin hər iki tərəfində hayqırtılı ağlaşmanın səsi aydın eşidilirdi. Bir azdan özünə gələn Hasan bəy danışığı sona çatdırıb tam əminliklə; - "Tezliklə görüşərik!" - deyib dəstəyi qapatdı...

## HƏSRƏTİN SONU VARMIŞ...

Türkiyə Dostluq və Kultur Mərkəzinin üzvləri Azərbaycandan gələn məşhur cərrah, professor İbrahim Topçubaşovun gəlişini səbrsizliklə gözləyir və təntənəli qarşılama tədbirlərinə hazırlaşırdılar.

Elmi simpozumlarda, xəstəxanalarda görüş keçirən professoru Hasan bəy müşaiyət edirdi. Bir gün minnətdarlığını bildirən professor məmnunluqla Hasan bəydən arzu və istəyini soruşdu.

Hasan bəy: - Professor, çox istərdim ki, Bakıya, vətənə gedib doğulduğum kəndimi, ailəmi, qohum - əqrabamı ziyarət edim.

Hasan bəy bu elə də çətin məsələ deyil. Yaxşı olardı ki, vətənə yola düşməyə hazırlaşın. Bu günlərdə, inşallah birlikdə gedərik, - deyə professor əminliklə Hasan bəyə eşitdirdi...

## VƏTƏNƏ SARI...

Maşın karvanı uzun səfərdən sonra Bakıya yetişdi. Öncə professor İbrahim Topçubaşov və Flora xanım Kərimova müsafirləri Hasan bəyi ciddi nəzarət altında qonaq evində, oteldə yerləşdirdilər.Professor əlini Hasan bəyin çiyninə qoyub: - heç nədən çəkinmədən özünüzü tam sərbəst hiss edin və tezliklə istəkləriniz də həyata keçəcəkdir, - deyə əminliklə eşitdirdi.

Qısa zaman kəsiyində doğmaları və övladları ilə görüşüb rahat olan Hasan bəyin ətrafında böyük qələbəlik yaranmışdı. Sevimli dayısı Murad müəllim, el ağsaqqalı Savalan baba, akademik Mehdi Mehdizadə, professor Zəkəriyyə Mehdizadə,görkəmli alimlər Oruc və Dərgah Qüdrətov qardaşları, el aşığı Məşədi aşıq Humay, müharibə iştirakçısı Misir Rüstəmovvə onlarla əzizləri Hasan bəyin görüşünə gəlib gözaydınlığı verirdilər. Respublikanın tanınmış məşhur elm, incəsənət və ictimai xadimlərinin Hasan bəyin görüşünə gəlməsi fərəhli hal kimi hamını sevindirirdi. Daimi onu müşaiyət edən professor İbrahim Topçubaşov, Xalq şairi Süleyman Rüstəm, bəstəkar Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Xalq artistləri Zeynəb Xanlarova, Şovkət Ələkbərova, Flora Kərimova, İslam Rzayev, Süleyman Abdullayev, Zaur Rzayev və digər tanınmış məşhurların ziyarətdə və tədbirlərdə görüşləri Səxavət bəydə xoş təəsürat yaratmışdı.

## ƏSLİ VƏ KƏRƏM OPERASI

Növbəti tədbirlərin birində maestro Niyazi və xanımı Həcər xanımın istəyi ilə Hasan bəyin şərəfinə öz evlərində verilmiş ziyafətdə görkəmli musiqişünas, bəstəkar və elm xadimlərinin iştirakı zamanı geniş süfrə arxasından ayağa qalxan maestro Niyazi: - "Əzizlərim, ziyafətdən sonra hamılıqla süfrə arxasından qalxıb birbaşa opera teatrına gedirik. Hasan bəyin şərəfinə Əsli və Kərəm opera tamaşası göstəriləcək. Əsli rolunu xalq artistimiz Zeynəb xanım Xanlarova ifa edəcəkdir," - deyə sözünü bitirdi.

Maestronun təklifirəğbətlə qarşılandı. Ziyafətdə iştirak edənlər hamılıqla teatrda xüsusi ayrılmış lojalarda tamaşanı maraqla izlədilər. Fasilədə Zeynəb xanım Xanlarova lojaya qalxıb hədsiz rəğbət bəslədiyi Hasan bəyi bərk-bərk qucaqlayaraq onunla həmsöhbət olub evinə qonaq dəvət etdi.

## HƏSRƏT DOLU NİSGİLİN SONU

Uzun müddət ayrılıqdan sonra vətənə qonaq qismində təşrif buyurmuş Hasan bəyi Türkiyəyə yola salmağa gələnlərin ardı-arası kəsilmirdi. Üzlərində təbəssüm, gözlərində sevinc yaşları ilə toplaşanlarla bir-bir sonuncu dəfə görüşən Hasan bəy:

- Sağ olun! Allah sizdən razı olsun! Gəlişinizi, zəhmətinizi halal edin, - deyə kövrəkliklə cavab verirdi.

Həyatında ən çox hörmət etdiyi, iki əsrin nümayəndəsi, yüz yaşında hamıdan qıvraq görünən, iri cüssəli Savalan baba Hasan bəyi qucaqlayaraq:

- Görürsən də, bütün el oba sənin ziyarətinə, yola samağa gəliblər.

Hasan bəyə yaxınlaşan professor İbrahim Topçubaşov onu bağrına basıb bərk-bərk qucaqlayaraq:

- Qardaşım, vətənimizdən - vətənimizə çoxlu-çoxlu salamlar aparın!

Bir azdan xüsusi ayrılmış İkarus avtobusu yerindən tərpənib yola düşdü...

Yola salmağa gələnlərin göz yaşlarının parıltısından doğan nisgillə - sevinc hissləri çöhrələrdə aydın sezilirdi.

Həsrət dolu ayrılıq illəri arxada qalsa da, dodaqlardan süzülən; - Allah amanında, sağ - salamat get, yaxşı yol! - deyə irəli şütüyən avtobusa əl edirdilər...!

**2022**

***Vaqif*** Rüstəmov